**Həmin gün hava bərk soyuq idi. Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində "Mübariz" adlı musiqili tamaşaya baxmağa tələsirdim.**

**Tamaşaya baxdım. Evə yollananda yenə yağış əvvəlki kimi yağırdı. Düşündüm ki, bu inam, qələbəyə doğru addım-addım irəliləyən etibar yağışıdı.**

**Və... Mübariz İbrahimov bir an belə gözümün önündən getmirdi. Elə bil "qəhrəmanı" gözümlə görmüşdüm.**

**Əslində elə idi.**

***

Qəhrəmanlar haqqında yazmağın özü bir hünərdir. Hər kəs Vətən üçün borcunu verməyə çalışır. Qələm adamları isə öz qələmləri ilə fədakarlıq edirlər. Qəhrəmanlıq haqqında yazılan hər bir əsər tarixdir. Yüzlərlə hərbi marşların mətn, musiqi müəllifi Şahin Musaoglu belə fədakarlarımızdandır.

*Əzizim dolu gözlər,*
*Sulanar sulu gözlər.*
*Ogulu əsgər gedən,*
*Analar yolu gözlər...*

İstedadlı xanəndəmiz Səbinə Ərəbli həzin, kövrək görkəmilə və ANA obrazını ustalıqla ifa etməyi ilə bütün zalı titrədir. Əsərdə bütün obrazlar maraqlıdır, yaddaqalandır. A.Abbasova Mübarizin sevgilisi rolunun öhdəsindən



# Ünvanlı alqışlar

"1-ci batalyon", "İgid əsgər məgrur dayan", "Cənab Leytenant", "Şahinlər" kimi mahnılar müəllifi Şahin Musaoglu imzası dillər əzbəridir. Bu günlərdə şairin "Mübariz" adlı liberettosunun canlı tamaşaçısı oldum. Bəstəkarı Nərminə Nagıyevaya məxsus olan bu əsər tamaşaçıları heyrətə gətirdi.

Tamaşada təkcə Mübarizin qəhrəmanlıgı ilə bərabər həm də dövlətə, dövlətçiliyə sədaqəti bilavasitə özündə aşılayır, Vətən sevgisi, bayraq təəssübü, el-oba sədaqəti əsərin əsas motivini təşkil edir.

Mübariz İbrahimov əvəzsiz qəhrəmandır. Tutdugu yol müqəddəsdir. Şair bu ölməzliyi Mübarizin diliylə belə vəsf edir:

*Sönən deyil odum, közüm*
*Müqəddəsdir yolum, izim,*
*Mübarizəm axır sözüm*
*Şərafət - Vətən naminə.*

*Bayraga and içib gəlləm*
*Şirin candan keçib gəlləm*
*Şəhidliyi seçib gəlləm*
*Şəhadət - Vətən naminə.*



Azərbaycan vokal məktəbinin layiqli davamçısı, Beynəlxalq müsabiqələr laureatı Ramil Qasımov Mübariz obrazını elə məharətlə oynadı ki, bütün zal aktyoru dönə-dönə alqışladı. Sanki qəhrəman canlı görünürdü. Maraqlı səhnələrdən biri də belə idi.

Mübariz səhnənin mərkəzinə qaçaraq gəlir, ciddi görkəm alaraq, üzü tamaşaçılara sarı oxumaga başlayır.

Mübariz emosional şəkildə:

*Bir savaş var içimdə - Ona fərman istəyirəm.*
*Bir hesab var içimdə - Qan-qan, qisas-qisasa.*
*İntiqam istəyirəm! İntiqam istəyirəm!*

Müəlliflə aktyorun gücü birləşəndə tamaşaçılar zalı alqış sədalarına bürüyür.

***Tamaşada ata-ana obrazları diqqəti xüsusi cəlb edir. Əməkdar artist, digər rollarını sevə-sevə izlədiyimiz Cahangir Qurbanov Agakərim kişinin obrazını özünəməxsus yaradıb. Tamaşacı "belə atanın oglu yalnız Mübariz kimi qəhrəman olar" qərarı ilə baş-başa qalır. Eləcə də Mübarizin anası Şamama xanım. Əsl igid anası.***

İstedadlı xanəndəmiz Səbinə Ərəbli bu möhtəşəm rolun öhdəsindən bacarıqla gəlir.

qəhrəmancasına gəlir. Əslində bu sevgili xəyal üzərində qurulan bir əks-sədadır. Hələ böyük Vətən müharibəsi illərində bir saçını ağ, o birini qara hörən qız-gəlinlərimizin bu günə qədər yol gözləyənləri var.

Mübarizin də sevgilisi mərddir, vətənpərvərdir, bir sözlə, Mübarizə yaraşan əsl sevgi simvoludur.

Hadisələr davam olunca tamaşaçı diqqəti Mübarizə, eləcə də qəhrəmanın ata-anasına yönəlir. Ata-anasının birgə oxuduğu:

***Mübariz tək bizim deyil...***
***Bu millətin balasıdı.***
***Mətanətin, dəyanətin...***
***Ləyaqətin qalasıdı!***

***Bəhruz, Rəşad Mübarizin qardaşlarıdır. T.Yahyayev, T.Agasiyev əsl qardaş surətini öz mükəmməl ifaları ilə yaddaşlara yazdılar. Nəzərdə qalan obrazlardan maraqlısı da Tagım komandiridir. İstedadlı aktyor T.Agasiyev bu rolu məharətlə oynayır. Mübariz deyir: Komandir, belə bir dua var, deyir, Uca Rəbbim mənə qüvvət ver, həyatda hər şeyi dəyişə bilim...***

Komandir: Halaldır, vallahi sənə Mübariz. Həm gözəl duadır, həm ibrətamiz...

Komandir Mübarizə yaxınlaşır.. Əlini çiyninə qoyub oxuyur: Dünya qarışla ölçülməz. Vətən qarışla ölçülər. Alın tərlə, əl qabarla... Beyin qırışla ölçülər. Hər güclü haqq deyil ki... Haqqı savaşla ölçülə... Səbrdə güc, gücdə səbr. Agıllı başla ölçülər...

Misralar, musiqilər, ifalar bütün tamaşaçıları riqqətə gətirir. Bir sözlə, səhnə dizayneri, Şəhla Ələkbərovanın drijorlugu ilə Azərbaycan Televiziya və Radiosunun C.Cahangirov adına xoru, Azərbaycan Televiziya və Radiosunun Niyazi adına simfonik orkestrinin ifası, drijor Nazim Hacıbəyovun drijorluğu ilə hər bir tamaşaçının yaddaşına yazıldı.

Liberettonun sonunda bütün ifaçılar səhnəyə çıxdı. Alqış sədaları zalı riqqətə gətirdi...

***Bu alqışlar bütünlükdə qəhrəmanlıga... ölməzliyə... bütövlüyə... şəhidliyə…ünüvanlanmışdı...***

***Bu alqışlar insanları neçə-neçə qəhrəmanlıga səsləyən mahnı və mətn müəllifi olan və bu "Möhtəşəm Mübariz" əsəri ilə tarixin yaddaşını silkələyən şair, bəstəkar əziz dostumuz, qardaşımız Şahin Musaoglunun şərəfinə ünvanlanmışdı...***

***Ən maraqlı da burası idi ki, tamaşaçılar zalı tərk etmək istəmirdi. Çünki hamının qulağına qələbə ruhlu marş sədaları gəlirdi. Və bu marşların da yaradıcısı Şahin Musaoglunun olacagı şübhəsiz deyildi...***

*Fərqanə Mehdiyeva*
*"Ulduz" jurnalının*
*poeziya şöbəsinin rəhbəri*
*17 yanvar, 2019-cu il*